**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

# İgid ömrü




## (22-ci yazı)

**Şükür:** "Füzuli xocalılarçün - namus-qeyrətçün qayıdırdı"

**Əli:** "Avtomatı dirəyib UAZ-ı saxlatdırdıq..."

Ağcakənddə məskunlaşmış Xocalı qaçqını Əli Rəcəbov da 26 fevral gecəsi Füzulini sonuncu görənlərdəndir. Dediyinə görə, həmin gecə Füzuli ilə birgə ermənilərlə vuruşublar da.

- Fevralın 26-da gecə Xocalıdan çıxdıq. Yolda rəhmətlik Aqilin meyitini də çiynimizdə gətirirdik. Ermənilər bir neçə dəfə atdılar dəstəyə. Onların atdığı güllələrdən Aqilə də dəydi. Biz gəldik Əsgəranın üstünə. Dedilər burda post var. Ora qabaqcadan gedib-gəlmiş adamlar söylədilər. Bizimkilər bir-iki güllə də atdılar göyə. Bunu görəndə camaat yığışdı bir yerə. Məndə avtomat yox idi. Amma üstümdə 16 ölçülü tüfəngim vardı. Baxdım ki, əlində avtomatı olan var, gizləyib. Ona dedim mən çıxıram qabağa. Al bu tüfəngi, avtomatı ver mənə. Mən İsmixanın oğluyam. Ölsəm heç, ölməsəm qaytararam avtomatını. Beləcə mən çıxdım, bir başqası da çıxdı irəli. Getdik gördük heç erməni postu da yox imiş. Qara-qura görünürmüş camaatın gözünə. Gəldik, səhər açılırdı. Qabağa düşənlərdən Füzuli oldu, mən oldum, biri də bilmirəm kim idi, üçümüz irəlidə gedirdik.

Əli qəhrəmanımızı necə tanıdığını da nəql edir. Deyir, onunla yaşları uyğun deyildi, ona görə bir elə yoldaşlıqları olmayıbmış Xocalıda. Amma eşidibmiş ki, onda əsl, necə deyərlər, şir ürəyi var. Hərə özünü öysə də Əli təsdiqləyir ki, amma o kişidə ürək var idi, ciyər var idi, həqiqətən döyüşkən oğlan idi.

Müsahibim 26 fevral gecəsinin bir hissəsini isə Füzuli ilə birgə hərəkət edib. O, baş verənləri belə xatırlayır:

- Elə bil ki, səhərə yaxın, saat altı olardı, rəhmətlik Füzuli ilə gördük ki, UAZ gəlir. Bu UAZ-dakılar, sən demə erməni komandirlər imiş. Onlar aşağıda qarapaltarlıları, yuxarıda ağpaltarlıları yerləşdirib bu maşından komanda verməklə iki tərəfi də idarə edirmişlər. Dedi qaçaq UAZ-a tərəf. Bir xeyli məsafəni qarda qaçdıq. Baxdım ki, UAZ yoxdu. Soruşdum hanı bəs UAZ? Füzuli dedi gözlə indi çıxacaq. Avtomatları dirədik düz UAZ-ın çıxdığı yerə. İçəridə ən azı beş nəfər vardı. İkisi qabaqda, üçü arxada oturmuşdu. UAZ qalxdı. Qabağında rezin antenası, arxasında əlavə iki antenası. Maşının sarıya çalan rəngi vardı. İçərisindəkilər saqqallı adamlar idi. Avtomatı dirəyib maşını saxlatdırdıq. Xocalı camaatı da aralıdan gəlir. Dedim, Füzuli ataq? Mən Füzuli olan yerdə heç kim idim. Özüm də Sovet əsgərliyindən təzəcə gəlmişdim. Rus hərbçisi formasındaydım: əfqanka, botinka-filan. Ermənilər bu formanı görəndə bir az çaş-baş düşdülər. Dedim Füzuli, arxa hissədə oturanlar bizi vura bilərlər, ona görə də də qapını açsınlar. Ermənilər də eşidirdi ha bu sözümü.

### "Bir qadın bir vay-şüvən qopardı ki, atmayın!"

- Robert Koçaryan da bu UAZ-da olub?

- Onu dəqiq deyə bilmərəm. Amma onlar çox qorxdu bizdən. Avtomatları 5/45 avtomatlardan idi. Bax, orda soruşdum ki, Füzuli, ataq? Dedim, mənə görə qorxma, gizlənmişəm daşın dalında. O hələ dillənməmiş o tərəfdən bir qadın çıxdı, yüyürdü yanımıza. Bu qadın bir vay-şüvən qopardı ki, atmayın! Yaylığını atdı yerə, özün çırpdı yerə. Başladı ki, burda qan tökülməyəcək, güllələməyin!

Amma onu da deyim ki, bu zamana qədər ölümzad olmamışdı hələ.

- Qadın azərbaycanlıydı da?

- Azərbaycanlıydı. O da sonradan tanıdıq. Yeni Xocalıdan imiş (həmsöhbətim qadının kimliyini söyləmək istəmədi. Ancaq onu dedi ki, həmin qadın erməni deyilmiş, əsl azərbaycanlı imiş - N.Z.). Kərəm Quliyev var, o tanıdı, başqaları tanıdı.

- Bəs o nə məqsədlə bu hərəkəti etmişdi? Hay-küy düşməsin, səs eşidilməsin, yoxsa onları öldürməyəsiz deyə...

- Hə-hə. Yeni səs-küy olmasın, camaatı qırarlar deyə. Amma sən demə, UAZ-dakılar bütün erməni postlarına nəzarət eləyən komandirlər imiş. Bu zaman əslən Ağdamın Əfətli kəndindən olan, Xocalıda Qaladərəsi deyilən yerdə yaşamış rəhmətlik "çekist" təxəllüslü Bəhman da gəlib çatdı bizə. Bu arvad necə yalvarır, sizi and verirəm Allaha, namusuma-qeyrətimə, burda ölüm olmayacaq, atışma olmayacaq, camaat burdan sağ-salamat keçməlidi. Burda qırğın eləməyin, atəş açmayın, qoyun biz də salamat keçib gedə bilək. Bu sözdən sonra rəhmətlik Füzuli də, mən də yan tərəflərə çəkildik, UAZ çıxıb getdi Əsgərana sarı. UAZ təxminən əlli-altmış metr gedib Qaraqayadan Əsgərana buruланda ratsiya ilə danışmağa başladı. Elə danışan kimi BTR çıxdı.

- Xəbər verdi ki, bu ərazidədilər yəqin...

- Hə. Onları orda məhv edəcəydik, bu arvad hardan çıxdı, bilmədim?! Biz camaatdan 150 metrə qədər qabaqda gedirdik, bu arvad hardan gəldi bizə çatdı, bilmədim.

- Yəni tək gəldi çıxdı ora?

- Hə-hə. Təkcənə. Bəlkə də rəhmətlik Füzuli onu tanıyırdı. Tanıyardı, onun Xocalıda kimisə tanımaması mümkün deyildi. Mən əvvəlcə düşündüm bəlkə də bu qadın o qarışıq nigahlardan olanlardandı ki, qırğın istəmir. Amma sonradan mənə dediklərinə görə onlardan deyilmiş. Nə isə, BTR-in təpənin arxasından çıxması ilə bizə atması bir oldu.

- BTR, yoxsa BMP?

- Yox-yox, siz deyən BMP sonradan gəldi. Əvvəlki BTR idi. Üstündə TŞK-pulemyotla atır ha, bax, ondan. BTR başladı biz tərəfi atəşə tutmağa. Ancaq onun gülləleri bizə dəymədi. Daha doğrusu, güllədən qorunmaq üçün təpənin arxa hissəsinə keçdik. Ardımızca gələn camaat da töküldü gəldi bu əraziyə. "Ağpaltarlılar" yuxarı hissədən başladılar 5/45 avtomatlarla atmağa. Bu avtomatın da bir xüsusiyyəti var ki, yerini bildirmir, səsi azdırır, bir az başqa səmtdən eşidilir. Belə baxırsan avtomat atılır, yerini görmürsən, ancaq gəlib camaatın yanında torpağa girir, 7/62 avtomatından atılan güllələrsə qarı sovururdu, torpağı sovururdu. Birtəhər asfaltın böyründəki təpəyə keçdi camaat. Elə ən böyük qırğın da o təpədə oldu. Güllə göydən dolu kimi yağırdı. Qaraqayada.

### "Gözlərində bir zəhm var idi ki, Füzulinin!.."

Bu yerdə Füzulinin yeznəsi, məni müsahiblərimin bir hissəsi ilə görüşlərdə sürücü və bələdçi kimi müşayiət edən Əvəz Həsənov söhbətə müdaxilə edərək, həmin ərazidən Telman adlı iri cüssəli xocalılının meyitini götürdüyündən, orda meyitlərin günlərlə yerdə qaldığından danışır. Əli isə hadisəni, o dəhşəti indi görürmüş, yaşayırmış kimi həyəcanla söhbətinə davam edir:

- Bax, orda bədən tərbiyəsi müəllimi Göyüş müəllim də bizimlə bir yerdə idi. Ağacların çılpaq vaxtı olduğundan, hər tərəf qardan ağappaq ağardığından gedib hansısa daldanacaqda gizlənmək mümkün deyildi. Sağ qalanları Allah saxlayırdı, qoruyurdu, vallah! "Qarapaltarlılar" bir tərəfdən, "ağpaltarlılar" bir tərəfdən, BTR, BMP bir tərəfdən camaatı biçirdilər silahlarla. Füzuli ilə həmin yerdə ayrıldıq.

- Niyə ayrıldız?

- Bilmirəm necə oldu ayrı düşdük? Yəni atışma düşəndə oldu bu. Birimiz atdıq ağpaltarlılara, birimiz qarapaltarlılara, zirehli texnikaya, bax belə-belə ayrı düşdük. Sonra dedilər Füzuli keçibmiş Şelliyə tərəf, bir də qayıdıb camaatı gətirməyə, onları gətirib bir də təzədən qayıdıb. Qayıdıb gedəndən sonra mənim onun barəsində məlumatım olmayıb. Amma mən eşitdim ki, dedilər Füzuli şəhid oldu...

- Gətiriblər onu Ağdam xəstəxanasına. Yaralı...

- Hə. Dedilər keçib gəlib bəri tərəfə təzədən qayıdıb gedəndə yaralanıb. Qaraqayada fermanın üst tərəfində erməni gülləsinə tuş gəlibdi.

- Bəs sən necə çıxdın o ərazidən?

- Mən gəldim aşağı hissədə gördüm ki, yeddi-səkkiz nəfər qarapaltarlı mamırlaşmış daşların arxasında dayanıb camaatı qırır. Mənim də üstümdə hazır qranat var idi bir ədəd, bir də üstümə sarıdığım 7/62 avtomatı. Dedim bunlar məni sağ buraxmayacaqlar. Qranatı hazır tutdum ki, məcbur olsam özümü öldürüm. Çünki bilirdim, diri tutsalar məni tikə-tikə doğrayacaqlar. Ən azı silahlı olduğuma və bunlara qarşı atışmada iştirak etdiyimə görə. Birdən ani düşündüm ki, üstümdə silah ola-ola niyə qorxub özümü öldürməliyəm. Yaxşısı budur, girim bunların içərisinə, bunları güllələyim də elə...öz-özümə belə ürək-dirək verdim, həm də öz-özümə dedim qoy görüm burdan sağ çıxa biləlrəmmi?! Təxminən 20 dəqiqə oturdum o çalanın içərisində. İndi baxıram altdan yuxarıya. Hesabladım ki, altdan yuxarı qalxanda mütləq "mişen" kimi hədəfə düşürsən. Ancaq məsafə bir qədər uzaqdı. Havayla 50-55 metr uzanır. Hesabımı götürdüm ki, kolluqla qaçım birtəhər aşım o biri tərəfə. Yer bütünlüklə qaratikan kolları idi. Bunlar oturub daşın dalında. Mənsə bunlardan 250 metrə qədər uzaqlaşmalıyam yox yerində. Avtomatla bunlara ata-ata sürətlə qaçıram kolluqla. Bunlarsa mənim dəqiq yerimi tutub mənə ata bilmirlər. Gəldim yarı yolda üç maqazin gülləm qurtardı. Onların da güllələrindən böyür-başımdan keçir, ancaq məni tutmur. Allaha pənahdı! Allah saxlayır məni. Üreyimdən nələr keçmir: Seyid Lazım ağanın ceddinə nəzir-niyaz deyirəm, bütün müqəddəsləri köməyə çağırıram. Patronum qurtaranda çığırdım. Lap yaxındadılar. Vallah, adamın Allahdan kəndiri üzülməyəndə üzülmür. Qışqırdım, avtomatı atdım, yerə uzandım ki, guya güllə dəydi mənə. Onlar mənə imkan verməz axı maqazini dolduram. Mənə üç dənə güllə atdılar. Biri botinkama (uzunboğaz ayaqqabı - N.Z.) dəydi, biri papağıma, biri isə düz qabağıma düşdü, üstümə torpaq da tulladı. Tərpənmədim. Ondan sonra mənə bir güllə də atılmadı. Böyür-başımda meyitlər uzanıb yerə. Doludu insan cəsədi. Burda vəziyyətdən istifadə edib maqazinin üçünü də doldurdum. Bu da xeyli vaxt apardı. Aradan 10-15 dəqiqə keçəndən sonra durdum bu üç maqazini onlara tərəf boşalda-boşalda 150 metrə qədər yolu qaçdım. Allaha and olsun, onlardan biri də mənə güllə ata bilmədi...

Qeyd etdiyim kimi, Füzulini Xocalıdan tanıdığını deyir Əli. O zaman uşaq olsa da. Xocalıda yoldaşlıqları olmayıb. Çünki Əli ondan iki yaş balaca imiş. Bir məktəbdə oxuyublar. Amma ermənilərə qarşı Xocalıdakı əməliyyatlarda birgə iştirak etməyiblər. Həmin ərəfədə Əli əsgəri xidmətdə olubmuş. Məktəbdə isə çox aktiv olduğunu xatırlayır qəhrəmanımızın:

- Gözlərində bir zəhm var idi ki Füzulinin!.. gedib Həsənabadda ermənının ikisini-üçünü təkbaşına atıb qaçıb gəlmişdi ey ordan. Erməni üst tərəfdən görüb qumbaranı atıb onu yaralamışdı da. Yaralı vəziyyətdə qaçıb canını ermənilərdən qurtarmışdı. Sonradan bizim uşaqlar getmişdi köməyə. O kəndlə ara məsafəmiz üç kilometrə qədər olardı. Füzuli belə oğul idi...

### Şükür: "Yaşda kiçik olsa da, igidlikdə hamımızı adlayıb keçirdi"

Əli ilə xudafafizləşib Ağcakənddə digər xocalılı - Xocalı rayon mədəniyyət şöbəsinin əməkdaşı Şükür Bəşirovla söhbətləşirəm. Mümkün qədər çox adamı danışdırmaq istəyirəm ki, qəhrəmanımızın igidlik, oçaqlıq, insan kimi istiqanlılıq simvolu olan portert cizgilərini daha dərindən aça bilim. Şükür Bəşirovun yaşı imkan verdi ki, o bizləri Füzulinin göstərdiyi igidliklərin ibtidasından belə bilgiləndirsin. Bu mənada Şükür müəllim də əvəzsiz müsahiblərimdən biri oldu. İndi sizləri onun dedikləri ilə baş-başa buraxıram:

- Füzulini gənc, qəhrəman oğlan kimi tanıyırdım. Mən onun haqqında Qarabağ hadisələrinin başladığı 12 fevral 1988-ci il tarixdən, yeni Qarabağ hadisələri başlayan tarixdən olan fəaliyyətindən danışmaq istəyirəm. O, vətənini, yurdunu sevən gənc bir oğlan idi. Ermənilərə nifrəti isə sonsuz idi. Bu səbəbdən bəzən çılğın hərəkətlərə də yol verirdi. Xarakterindəki dəliqanlılıq hissləri ancaq onun Vətən sevgisindən qaynaqlanırdı. O məndən xeyli uşaq idi yaşda. Ancaq igidlikdə hamımızı adlayıb keçirdi. Mən özüm o mənfur ermənilərlə bir yerdə işləmişəm deyə, onların hansı xisləti daşıdıqlarını yaxşı bilirəm.

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***
***jurnalist-publisist***